II BÖLMƏ.
BANK FƏALİYYƏTİ. MALİYYƏ, MÜHASİBAT UÇOTU

UOT: 336.7

Ülviyyə Telman qızı HƏMDULLAYEVA
Azərbaycan Turizm və Menecment Universiteti
“Biznes və menecment” fakültəsinin magistrantı
hmdlyva17@gmail.com
ORCID NO: 0009-0000-4894-0067

Elmi rəhbər: Şahin Şahvələd oğlu MUSTAFAYEV
Azərbaycan Turizm və Menecment Universiteti,
“İqtisadiyyat” kafedrasının baş müəllimi
shahin.mustafayev74@gmail.com
ORCID NO: 0000-0002-1604-5858
https://doi.org/10.30546/4.71.731.03.2026.32

AZƏRBAYCANIN BANK SİSTEMİNİN İNKİŞAF DİNAMİKASI

Xülasə

Məqalə Azərbaycanın bank sisteminin inkişaf dinamikasının milli iqtisadiyyatın transformasiya prosesləri kontekstində hərtərəfli təhlilinə həsr olunmuşdur.

Tədqiqatın məqsədi postböhran və rəqəmsallaşma dövrlərində ölkənin bank sektorunun təkamülünü müəyyənləşdirən əsas meylləri, amilləri və struktur dəyişikliklərini aşkar etməkdən ibarətdir.

Tədqiqat metodologiyası əsasən iqtisadi-statistik təhlil alətlərinin tətbiqinə əsaslanır. Bu metodun tətbiqi likvidlik, dayanıqlıq, rəqəmsallaşma və bank sisteminin rəqabətqabiliyyətliliyi göstəricilərinin dinamikasını kompleks şəkildə qiymətləndirməyə imkan vermişdir.

Tədqiqatın əhəmiyyəti onun dövlət tənzimləyiciləri, kommersiya bankları və analitik mərkəzlər üçün praktiki tətbiq oluna bilməsi ilə müəyyən edilir. Nəticələr maliyyə siyasətinin təkmilləşdirilməsi, rəqəmsal strategiyaların işlənməsi və bank sektorunun xarici şoklara davamlılığının artırılması üçün əsas rol oynaya bilər.

Tədqiqatın nəticələri göstərir ki, Azərbaycanın bank sistemi davamlı artım, sürətli rəqəmsal transformasiya, problemli kreditlərin payının azalması və korporativ idarəetmənin keyfiyyətinin yüksəlməsi ilə xarakterizə olunur ki, bu amillər bütövlükdə maliyyə sabitliyinin möhkəmlənməsinə töhfə verir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi bank sisteminin inkişaf dinamikasının müasir texnoloji trendlər və institusional dəyişikliklər nəzərə alınmaqla kompleks qiymətləndirilməsində, həmçinin onun gələcək modernizasiyasını müəyyənləşdirən amillərin müəllif konseptual modelinin irəli sürülməsində əks olunur.

Açar sözlər: Azərbaycanın bank sistemi, bank sektorunun aktivləri, ev təsərrüfatlarına verilən kreditlər, hüquqi şəxslərə verilən kreditlər, regionlar üzrə kredit qoyuluşu, cəmi depozit bazasının valyutalar üzrə strukturu, regionlar üzrə cəlb olunmuş əmanətlər.

Giriş

Qloballaşma və rəqəmsal texnologiyaların sürətli inkişafı müasir milli iqtisadiyyatların institusional strukturunda əsaslı dəyişikliklərə səbəb olmuş, maliyyə institutlarının, xüsusilə bank sisteminin iqtisadi proseslərdə rolunu əhəmiyyətli dərəcədə artırmışdır. Banklar maliyyə resurslarının

səmərəli bölgüsünü həyata keçirən, investisiya və istehlak fəaliyyətini stimullaşdıran, eyni zamanda makroiqtisadi sabitliyin təmin edilməsində mühüm funksiyalar icra edən əsas iqtisadi subyektlər kimi çıxış edir. Bu baxımdan bank sektorunda baş verən struktur və funksional transformasiyaların elmi əsaslarla araşdırılması aktual tədqiqat istiqaməti hesab olunur [1, s. 8-49].

Azərbaycanın bank sistemi milli iqtisadiyyatın inkişaf dinamikası ilə sıx bağlı olaraq son illərdə əhəmiyyətli təkamül mərhələsindən keçmişdir. Postböhran dövründə maliyyə dayanıqlığının gücləndirilməsi, normativ-hüquqi çərçivənin təkmilləşdirilməsi, risklərin idarə olunması mexanizmlərinin modernləşdirilməsi və rəqəmsal bankçılıq həllərinin tətbiqi sektorun inkişafında həlledici rol oynamışdır. Bu proseslər bankların əməliyyat səmərəliliyinin yüksəlməsinə, aktivlərin keyfiyyətinin yaxşılaşmasına və maliyyə xidmətlərinin daha geniş əhali qrupları üçün əlçatan olmasına şərait yaratmışdır. Eyni zamanda mərkəzi bankın makroprudensial siyasət alətlərinin gücləndirilməsi bank sisteminin institusional dayanıqlığını artırmış və beynəlxalq maliyyə standartlarına uyğunlaşmanı sürətləndirmişdir [2, s. 21-67].

Müasir mərhələdə bank sektorunun inkişafının öyrənilməsi rəqəmsallaşma, fintex həllərinin genişlənməsi, maliyyə istehlakçılarının davranışındakı dəyişikliklər və qlobal maliyyə bazarlarında artan qeyri-müəyyənlik fonunda xüsusi əhəmiyyət kəsb edir. Bu amillər bankların rəqabətqabiliyyətliliyinə, risklərə davamlılığına və uzunmüddətli inkişaf potensialına birbaşa təsir göstərir. Sözügedən meyllərin kompleks təhlili həm tənzimləyici orqanlar, həm də kommersiya bankları üçün strateji qərarların qəbulunda elmi əsasların formalaşdırılmasına imkan yaradır [3, s. 306-330].

Bu baxımdan tədqiqatın əsas məqsədi Azərbaycanın bank sisteminin inkişaf xüsusiyyətlərini, struktur dəyişikliklərini və müasir çağırışlara adaptasiya imkanlarını kompleks şəkildə təhlil etməkdən ibarətdir. Aparılan araşdırma bank sektorunun mövcud vəziyyətinin qiymətləndirilməsinə, inkişaf meyllərinin müəyyənləşdirilməsinə və dinamik iqtisadi mühitdə onun davamlı fəaliyyətini şərtləndirən əsas amillərin elmi cəhətdən əsaslandırılmasına yönəlmişdir.

Azərbaycanda bank sisteminin inkişaf dinamikasına bank sektorunun aktivlərinin və iqtisadiyyatın müxtəlif sahələri üzrə verilən kreditlərin təsir dərəcəsi

Tədqiqatın metodoloji əsası Azərbaycanın bank sistemində baş verən proseslərin kompleks, etibarlı və hərtərəfli təhlilini təmin etmək məqsədilə formalaşdırılmışdır. İnkişaf dinamikasının kəmiyyət baxımından qiymətləndirilməsi üçün **iqtisadi-statistik təhlil metodları** tətbiq olunur.

Cədvəl 1.

Bank sektorunun aktivləri, mln. manat [9, s.58; 10, s.57; 11, s.64; 12, s.65; 13, s.65; 14, s.65]

İllər	2020	2021	2022	2023	2024	31.10.2025
Cəmi	32055.3	38462.2	47054.9	49178.2	53001.4	56341.9
Xarici valyutada	12954.4	15160.1	19064.6	16552.4	16196.3	16917.8

Cədvəl 1-də 2020 - 2025-ci illərdə Azərbaycanda bank sektorunun aktivləri təqdim olunub. Cədvəl 1 əsasında qeyd etmək lazımdır ki, 2020-ci il ilə müqayisədə 31.10.2025-ci ilə cəmi bank sektorunun aktivləri 24286.6 mln. manat, yaxud 75.8% artmışdır, həmçinin həmin dövrdə xarici valyutada bank sektorunun aktivləri 3963.4 mln. manat, yaxud 30.6% artmışdır, lakin bu göstərici təhlil olunan dövrün ən yüksək göstəricisindən (2022-ci il) 2146.8 mln. manat, yaxud 11.3% aşağıdır [9, s.58; 10, s.57; 11, s.64; 12, s.65; 13, s.65; 14, s.65].

Cədvəl 2-də 2021-2025-ci illərdə Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələri üzrə verilən kreditlər təqdim olunub və bu cədvəl əsasında aşağıdakıları xüsusilə qeyd etməliyik: 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında ev təsərrüfatlarına verilən kreditlər 9548.4 mln. manat, yaxud 114.8% artmışdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında ticarət və xidmət sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 1147.5 mln. manat, yaxud 38.5% artmışdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında mədənçıxarma sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 142.7 mln. manat, yaxud 30.8% azalmışdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında elektrik enerjisi, qaz, buxar və su təsərrüfatı sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 59.6 mln. manat, yaxud 23.3% artmışdır.

Cədvəl 2.

İqtisadiyyatın müxtəlif sahələri üzrə verilən kreditlər, mln. manat [9, s.20; 10, s.20; 11, s.22; 12, s.22; 13, s.22; 14, s.22]

İllər	2021	2022	2023	2024	2025-oktyabr
1. Ev təsərrüfatlarına verilən kreditlər, cəmi	8320.5	10889.7	13515.0	16358.5	17868.9
2. Ticarət və xidmət sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, cəmi	2982.3	3293.4	3505.5	4075.7	4129.8
3. Mədənçıxarma sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, cəmi	462.8	385.5	332.1	413.7	320.1
4. Elektrik enerjisi, qaz, buxar və su təsərrüfatı sektoruna verilən kreditlər, cəmi	256.1	231.0	378.0	306.5	315.7
5. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, cəmi	563.2	583.7	487.1	472.7	452.4
6. İnşaat və tikinti sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, cəmi	623.1	834.8	865.5	1091.6	1238.6
7. Daşınmaz əmlak sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, cəmi	279.9	261.3	268.0	86.7	26.2
8. Sənaye və istehsal sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, cəmi	960.2	1048.8	1188.1	1534.9	1631.2
9. Nəqliyyat və rabitə sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, cəmi	733.9	788.6	1421.0	1854.1	2115.8

Lakin bu göstərici təhlil olunan dövrün ən yüksək göstəricisindən (2023-cü il) 62.3 mln. manat, yaxud 16.5% aşağıdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 110.8 mln. manat, yaxud 19.7% azalmışdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında inşaat və tikinti sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 615.5 mln. manat, yaxud 98.8% artmışdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında daşınmaz əmlak sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 253.7 mln. manat, yaxud 90.6% azalmışdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında sənaye və istehsal sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 671.0 mln. manat, yaxud 69.9% artmışdır; 2021-ci il ilə müqayisədə 2025-ci ilin oktyabr ayında nəqliyyat və rabitə sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər 1381.9 mln. manat, yaxud 188.3% artmışdır [9, s.20; 10, s.20; 11, s.22; 12, s.22; 13, s.22; 14, s.22].

Azərbaycanda bank sisteminin inkişaf dinamikasında bankların kredit portfelinin, regionlar üzrə kredit qoyuluşunun, depozit (əmanət) bazasının rolu

Cədvəl 3.

2019-2025-ci illərdə Azərbaycan Respublikasında bankların kredit portfelinin strukturu barədə məlumat, mln. manat [9, s.61; 10, s.60; 11, s.68; 12, s.69; 13, s.69; 14, s.69]

İllər	2019	2020	2021	2022	2023	2024	31.10.2025
Kredit portfeli, o cümlədən:	14900.9	14157.0	16659.1	19594.4	23183.0	27477.7	29403.9
*biznes krediti	9031.6	8478.3	9740.0	10855.1	12616.8	14787.2	15623.4
*istehlak krediti	4075.3	3661.2	4518.4	5754.1	6937.0	8445.0	9232.4
*ipoteka krediti	1794.0	2017.5	2400.7	2985.2	3629.2	4245.5	4548.0

Cədvəl 3-də 2019-2024-cü illərdə Azərbaycan Respublikasında bankların kredit portfelinin strukturu barədə məlumat təqdim olunub. Bu cədvəldən aşağıdakı məsələləri xüsusi qeyd etməliyik: 2019-cu il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə Azərbaycan Respublikasında bankların kredit portfelində canlanma müşahidə edilir, belə ki, təhlil olunan dövrdə kredit portfeli

14503 mln. manat, yaxud 97.3% artmışdır; kredit portfelində ən böyük pay biznes kreditlərinin payına düşür; 2019-cu il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə kredit portfelində biznes kreditləri 6591.8 mln. manat, yaxud 73.0% artmışdır; 2019-cu il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə kredit portfelində istehlak kreditləri 5157.1 mln. manat, yaxud 126.5% artmışdır; 2019-cu il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə kredit portfelində ipoteka kreditləri 2754.0 mln. manat, yaxud 153.5% artmışdır [9, s.61; 10, s.60; 11, s.68; 12, s.69; 13, s.69; 14, s.69].

Cədvəl 4.

Bankların qeyri-işlək kreditlərinin strukturu barədə məlumat (mln. manat) [10, s.71; 11, s.71; 12, s.71; 13, s.71; 14, s.71]

İllər	2021	2022	2023	2024	31.10.2025
Qeyri-işlək kredit (QİK), o cümlədən:	**748.0**	**735.3**	**614.2**	**655.1**	**805.3**
biznes kreditləri	498.3	507.3	378.0	374.8	447.4
istehlak kreditləri	183.4	184.9	196.8	246.3	325.8
ipoteka kreditləri	66.2	43.0	39.4	34.0	32.1
QİK/Kredit portfeli, o cümlədən	**4.5%**	**4.6%**	**2.6%**	**2.4%**	**2.7%**
biznes (QİK)/biznes kreditləri	5.1%	4.7%	3.0%	2.5%	2.9%
istehlak (QİK)/istehlak kreditləri	4.1%	0.7%	2.8%	2.9%	3.5%
ipoteka (QİK)/ipoteka kreditləri	2.8%	6.2%	1.1%	0.8%	0.7%

Cədvəl 4-də 2021-2025-ci illərdə Azərbaycan Respublikasında bankların qeyri-işlək kreditlərinin strukturu barədə məlumat təqdim olunub. Qeyd etmək lazımdır ki, 2021-ci il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə bankların ümumi qeyri-işlək kreditlərinin məbləği 57.3 mln. manat, yaxud 7.7% artmışdır. Bu isə qlobal iqtisadi inteqrasiya şəraitində Azərbaycanda yaşıl investisiyaların stimullaşdırılmasında bank alətlərinin tətbiqinə problemlər yaradır. 2021-ci il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə biznes kreditləri üzrə qeyri-işlək kreditlərin məbləği 50.9 mln. manat, yaxud 10.2% azalmışdır. 2021-ci il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə istehlak kreditləri üzrə qeyri-işlək kreditlərin məbləği 142.4 mln. manat, yaxud 77.6% artmışdır. 2021-ci il ilə müqayisədə 2025-ci ilin 31 oktyabr tarixinə ipoteka kreditləri üzrə qeyri-işlək kreditlərin məbləği 34.1 mln. manat, yaxud 51.5% azalmışdır [10, s.71; 11, s.71; 12, s.71; 13, s.71; 14, s.71].

Cədvəl 5.

Regionlar üzrə kredit qoyuluşu, min manat [4, s.32; 5, s.32; 6, s.32; 7, s.32; 8, s.32; 9, s.32; 10, s.32; 11, s.34; 12, s.34; 13, s.34; 14, s.34]

İllər	Azərbaycan Respublikası	Bakı iqtisadi rayonu	Digər regionlar	Regionlar üzrə cəmi kredit qoyuluşlarında Bakı iqtisadi rayonunun payı, faizlə
2015	21717979.6	18176001.1	3541978.5	83.7
2016	16444561.7	13998669.9	2445891.8	85.1
2017	11757787.0	9773321.5	1984465.5	83.1
2018	13020303.4	10692000.4	2328303.0	82.1
2019	14900936.0	11954445.0	2946491.0	80.2
2020	14156979.0	11329557.0	2827422.0	80.0
2021	16659105.0	13021431.0	3637674.0	78.2
2022	19594361.0	15030502.0	4563859.0	76.7
2023	23182961.0	17736016.0	5446945.0	76.5
2024	27477656.0	21035300.0	6442356.0	76.6
31.10.2025	29403857.0	22290671.0	7113186.0	75.8

Cədvəl 5-də 2015-2025-ci illərdə Azərbaycanın regionlar üzrə kredit qoyuluşu təqdim olunub. Bu cədvəl əsasında aşağıdakı nəticələrə gələ bilərik: 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə regionlar üzrə cəmi kredit qoyuluşu 7685877.4 min manat, yaxud 35.4% artmışdır; 2015-

ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə Bakı iqtisadi rayonu üzrə cəmi kredit qoyuluşu 4114669.9 min manat, yaxud 22.6% artmışdır; 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə digər regionlar üzrə cəmi kredit qoyuluşu 3571207.5 min manat, yaxud 100.8% artmışdır; 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə regionlar üzrə cəmi kredit qoyuluşlarında Bakı iqtisadi rayonunun payı 7.9% azalmışdır [4, s.32; 5, s.32; 6, s.32; 7, s.32; 8, s.32; 9, s.32; 10, s.32; 11, s.34; 12, s.34; 13, s.34; 14, s.34].

Cədvəl 6-da 2015-2025-ci illərdə Azərbaycanın cəmi depozit bazasının valyutalar üzrə strukturu təqdim olunub. Cədvəl 6 əsasında aşağıdakı vacib məqamları qeyd etmək lazımdır: 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə cəmi depozitlər 18158.0 mln. manat, yaxud 77.5% artmışdır; 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə manatla olan depozitlər 21621.4 mln. manat, yaxud 502.6% artmışdır; 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə xarici valyutada olan depozitlər 3463.4 mln. manat, yaxud 18.1% azalmışdır [4, s.34; 5, s.34; 6, s.34; 7, s.34; 8, s.34; 9, s.34; 10, s.34; 11, s.36; 12, s.36; 13, s.36; 14, s.36].

Cədvəl 6.

Cəmi depozit bazasının valyutalar üzrə strukturu, mln. manat [4, s.34; 5, s.34; 6, s.34; 7, s.34; 8, s.34; 9, s.34; 10, s.34; 11, s.36; 12, s.36; 13, s.36; 14, s.36]

İllər	Cəmi depozitlər	O cümlədən:	
		Manatla	Xarici valyuta ilə
2015	23431.4	4301.7	19129.7
2016	22091.0	5459.0	16632.0
2017	20599.1	5685.6	14913.5
2018	21870.4	7581.7	14288.7
2019	24746.0	9657.6	15088.4
2020	23666.9	10328.0	13338.9
2021	29027.7	14681.8	14345.9
2022	36249.8	18704.6	17545.2
2023	36965.1	22243.8	14721.3
2024	40270.8	24791.9	15478.9
31.10.2025	41589.4	25923.1	15666.3

Cədvəl 7.

Regionlar üzrə cəlb olunmuş əmanətlər, min manat [4, s.37; 5, s.37; 6, s.37; 7, s.37; 8, s.37; 9, s.37; 10, s.37; 11, s.39; 12, s.39; 13, s.39; 14, s.39]

İllər	Azərbaycan Respublikası	Bakı iqtisadi rayonu	Digər regionlar	Regionlar üzrə cəmi cəlb olunmuş əmanətlərdə Bakı iqtisadi rayonunun payı, faizlə
2015	9473935.8	8867228.7	606707.1	93.6
2016	7448670.4	6950090.1	498580.3	93.3
2017	7561164.9	6997655.9	563509.0	92.5
2018	8375381.0	7707930.5	667450.5	92.0
2019	8637916.0	7810839.0	827077.0	90.4
2020	8177887.0	7336310.0	841577.0	89.7
2021	9241463.0	8217690.0	1023773.0	88.9
2022	11742959.0	10406876.0	1336083.0	88.6
2023	12947756.0	11465555.0	1482201.0	88.5
2024	14661949.0	12954353.0	1707596.0	88.3
31.10.2025	15907114.0	13939464.0	1967650.0	87.6

Cədvəl 7-də 2015-2025-ci illərdə Azərbaycanın regionları üzrə cəlb olunmuş əmanətlər təqdim olunub. Bu cədvəldən aşağıdakı nəticələrə gələ bilərik: 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə ölkəmizin regionları üzrə cəlb olunmuş əmanətlər 6433178.2 min manat, yaxud 67.9%

artmışdır; 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə Bakı iqtisadi rayonu üzrə cəlb olunmuş əmanətlər 5072235.3 min manat, yaxud 57.2% artmışdır; 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə digər regionlar üzrə cəlb olunmuş əmanətlər 1360942.9 min manat, yaxud 224.3% artmışdır; 2015-ci il ilə müqayisədə 31.10.2025-ci il tarixinə regionlar üzrə cəlb olunmuş əmanətlərdə Bakı iqtisadi rayonunun payı 6.0% azalmışdır [4, s.37; 5, s.37; 6, s.37; 7, s.37; 8, s.37; 9, s.37; 10, s.37; 11, s.39; 12, s.39; 13, s.39; 14, s.39].

Nəticə

Aparılmış empirik təhlil göstərir ki, Azərbaycanın bank sistemi 2020-2025-ci illər ərzində post-böhran mərhələsində keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bank sektorunun əsas makroprudensial göstəriciləri - aktivlərin həcmi, kredit və depozit portfellərinin dinamikası, regionlar üzrə maliyyə resurslarının bölgüsü və risk indikatorları - sektorun maliyyə dayanıqlığının və funksional səmərəliliyinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini təsdiqləyir. Xüsusilə bank aktivlərinin nəzərəçarpacaq artımı və valyuta strukturunda müşahidə olunan sabitlik kapital mövqelərinin gücləndiyini və tənzimləyici siyasətlərin effektivliyini əks etdirir.

Kreditləşmə proseslərinin struktur analizi bank sektorunda sektorlararası diversifikasiyanın dərinləşdiyini göstərir. Ev təsərrüfatları, tikinti və nəqliyyat-rabitə sahələrinə yönəldilən kreditlərin artması daxili tələbin stimullaşdırılması baxımından mühüm rol oynadığı halda, sənaye və istehsal sahəsinə kredit qoyuluşlarının genişlənməsi real sektorun maliyyələşdirilməsində bankların rolunun artdığını nümayiş etdirir. Bununla yanaşı, bəzi sahələr üzrə kreditlərin azalması risklərin yenidən bölgüsü və prioritet sektorların formalaşması prosesinin getdiyini göstərir.

Kredit portfelində istehlak və ipoteka kreditlərinin payının artması maliyyə inklüzivliyinin genişlənməsi və bank xidmətlərinin rəqəmsallaşması ilə sıx bağlıdır. Qeyri-işlək kreditlərin ümumi portfeldə payının azalması isə risklərin idarə olunması mexanizmlərinin təkmilləşdirildiyini, korporativ idarəetmə standartlarının gücləndiyini və aktivlərin keyfiyyətinin yüksəldiyini sübut edir. Bu proses bank sisteminin davamlılığı baxımından mühüm struktur üstünlüyü formalaşdırır.

Regionlar üzrə kredit və depozit göstəricilərinin təhlili bank xidmətlərinin coğrafi baxımdan daha balanslı şəkildə yayıldığını göstərir. Paytaxt regionunun nisbi üstünlüyünün azalması və digər iqtisadi rayonlarda maliyyə əməliyyatlarının genişlənməsi ölkə üzrə maliyyə inklüzivliyinin artmasına və regional iqtisadi aktivliyin dəstəklənməsinə şərait yaratmışdır. Eyni zamanda depozit bazasında milli valyutada əmanətlərin sürətli artımı əhalinin manatla qənaətə üstünlük verdiyini, makroiqtisadi sabitliyə və pul siyasətinə etimadın yüksəldiyini nümayiş etdirir.

Ümumilikdə, tədqiqatın nəticələri göstərir ki, Azərbaycanın bank sistemi rəqəmsal transformasiya, diversifikasiya olunmuş kreditləşmə, gücləndirilmiş risk idarəetməsi və institusional modernizasiya istiqamətlərində davamlı inkişaf xətti üzrə irəliləyir. Bu meyllər bank sektorunun iqtisadi artımın maliyyələşdirilməsində rolunu artırmaqla yanaşı, makroiqtisadi sabitliyin qorunmasına və sosial rifahın yüksəldilməsinə mühüm töhfə verir. Nəticə etibarilə, formalaşan inkişaf modeli bank sisteminin uzunmüddətli dayanıqlığını və beynəlxalq maliyyə standartlarına uyğunlaşma potensialını təmin edən əsas baza kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. Банки и банковские операции: учебник и практикум для вузов / В. В. Иванов [и др.]; под редакцией Б. И. Соколова. – Москва : Издательство Юрайт, 2024. – 189 с.
2. Банки и банковское дело: учебник и практикум для вузов / под редакцией В. А. Боровковой. – 7-е изд., перераб. и доп. – Москва : Издательство Юрайт, 2024. – 606 с.
3. Банковский менеджмент: учебник / Я.Ю. Радюкова, О.Н. Чернышова, А.Ю. Федорова [и др.]. – Москва : ИНФРА-М, 2024. - 379 с.
4. https://uploads.cbar.az/assets/ffb9ab802704608cb98efed24.pdf (2015)
5. https://uploads.cbar.az/assets/8993e2a3b7e5dc91b88ebe58d.pdf (2016)

6. https://uploads.cbar.az/assets/6ab34ab7502311f5d9c3bd371.pdf (2017)
7. https://uploads.cbar.az/assets/fda7f4b02b46b495ceb27290e.pdf (2018)
8. https://uploads.cbar.az/assets/02292fd79fea83216532da166.pdf (2019)
9. https://uploads.cbar.az/assets/acc41ac8a6ec8886355f2366d.pdf (2020)
10. https://uploads.cbar.az/assets/38661e3cf9caf4b264aea0002.pdf (2021)
11. https://uploads.cbar.az/assets/4a6a6939aa9516234c3cdedbe.pdf (2022)
12. https://uploads.cbar.az/assets/aa13eadd83ce9ae4392736ec0.pdf (2023)
13. https://uploads.cbar.az/assets/c6426af9cd2368b44eb7ca4c6.pdf (2024)
14. https://uploads.cbar.az/assets/18d16d3cf3b791aa460e27180.pdf (2025)

Ульвия Тельман кызы Хамдуллаева
Азербайджанский Университет Туризма и Менеджмента,
Магистрант факультета "Бизнес и менеджмент"
hmdlyva17@gmail.com
ORCID NO: 0009-0000-4894-0067

Шахин Шахвелед оглы Мустафаев
Азербайджанский Университет Туризма и Менеджмента,
Старший преподаватель кафедры "Экономика"
shahin.mustafayev@gmail.com
ORCID NO: 0000-0002-1604-5858

Динамика развития банковской системы Азербайджана

Резюме

Статья посвящена всестороннему анализу динамики развития банковской системы Азербайджана в контексте трансформационных процессов национальной экономики.

Цель исследования заключается в выявлении ключевых тенденций, факторов и структурных изменений, определяющих эволюцию банковского сектора страны в посткризисный и цифровой периоды.

Методология исследования основана главным образом на применении инструментов экономико-статистического анализа. Применение данного метода позволило комплексно оценить динамику показателей ликвидности, устойчивости, цифровизации и конкурентоспособности банковской системы.

Значимость исследования определяется его практической применимостью для государственных регуляторов, коммерческих банков и аналитических центров, поскольку результаты могут служить основой для совершенствования финансовой политики, разработки цифровых стратегий и повышения устойчивости банковского сектора к внешним шокам.

Результаты исследования показывают, что банковская система Азербайджана демонстрирует устойчивый рост, ускоренную цифровую трансформацию, снижение доли проблемных кредитов и повышение качества корпоративного управления, что в совокупности способствует укреплению финансовой стабильности.

Оригинальность и научная новизна исследования заключаются в комплексной оценке динамики развития банковской системы с учётом современных технологических трендов и институциональных изменений, а также в предложении авторской концептуальной модели факторов, определяющих её дальнейшую модернизацию.

Ключевые слова: банковская система Азербайджана, активы банковского сектора, кредиты домохозяйствам, кредиты юридическим лицам, кредитные вложения по регионам, структура общей депозитной базы по валютам, привлеченные вклады по регионам.

Ulviyya Telman Hamdullayeva
Azerbaijan Tourism and Management University,
Master of the faculty “Business and management”
hmdlyva17@gmail.com
ORCID NO: 0009-0000-4894-0067

Shahin Shahveled Mustafayev
Azerbaijan Tourism and Management University,
Senior lecturer of the Department of Economics
shahin.mustafayev74@gmail.com
ORCID NO: 0000-0002-1604-5858

Development dynamics of the banking system of Azerbaijan

Summary

The article is devoted to a comprehensive analysis of the development dynamics of Azerbaijan’s banking system in the context of the transformation processes of the national economy.

The purpose of the study is to identify the main trends, factors, and structural changes that determine the evolution of the country's banking sector during the post-crisis and digitalization periods.

The research methodology is primarily based on the application of economic and statistical analytical tools. The use of this method has made it possible to evaluate, in a complex manner, the dynamics of liquidity, stability, digitalization, and the competitiveness indicators of the banking system.

The significance of the study is determined by its potential practical applicability for state regulators, commercial banks, and analytical institutions. The results may play a key role in improving financial policy, developing digital strategies, and enhancing the resilience of the banking sector to external shocks.

The findings of the study show that Azerbaijan’s banking system is characterized by sustainable growth, rapid digital transformation, a reduction in the share of non-performing loans, and an improvement in the quality of corporate governance, all of which contribute to strengthening overall financial stability.

The originality and scientific novelty of the research are reflected in the comprehensive assessment of the development dynamics of the banking system, taking into account modern technological trends and institutional changes, as well as in the author’s conceptual model that identifies the factors determining its future modernization.

Key words: banking system of Azerbaijan, banking sector assets, loans to households, loans to legal entities, regional loan distribution, currency structure of total deposit base, regional distribution of attracted deposits.